**ODLAR YURDU UNİVERSİTETİ**

**Elmi Şurasının 24 noyabr 2025-ci il tarixli iclasının**

**03 saylı**

**PROTOKOLU**

| | |
|---|---|
| Bakı şəhəri | 24 noyabr 2025-ci il |
| Elmi Şuranın sədri: | prof. Ə.A.Vəliyev |
| Elmi katib: | dos. S.S.Məmmədzadə |
| İştirak etdilər: | Elmi Şuranın 34 üzvü |
| Dəvət olundu: | R.İrzayev<br>Göyüşova Rəvanə<br>Eyyubov Ramazan<br>Elxan Əliyev |

**Gündəlikdə duran məsələlər**

| |
|---|
| 1. Universitetdə tədris prosesinin gedişi. |
| 2. Doktorantların dissertasiya mövzularının və elmi rəhbərlərinin təsdiqi məsələsi. |
| 3. Kafedralar üzrə müəllimlərin elmi fəaliyyəti, elmi seminarlar və elmi tədqiqat işlərinin müzakirəsi. |
| 4. 2026-2027-ci tədris ilində bakalavr və magistratura səviyyəsi və MBA proqramı üzrə proqnoz yerlərin layihəsinin müzakirəsi |
| 5. Odlar Yurdu Universitetinin 30 illik yubileyinə hazırlığın vəziyyəti barədə müzakirə |
| 6. Odlar Yurdu Universitetində professor, dosent, baş müəllim və müəllim vəzifələrinə yüksəlmə və təyinat qaydaları haqqında əsasnamənin müzakirəsi |
| 7. “Beynəlxalq münasibətlər və turizm” kafedrasının baş müəllimi Elxan Əliyev tərəfindən tərtib edilmiş “Turizm coğrafiyası” adlı dərs vəsaitinin müzakirəsi. |
| 8. “Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasının müəllimləri Eyyubov Ramazan, Hüseynov Eldar və Sultanova Vüsalə tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 1” və Eyyubov Ramazan və Səmədzadə Fərahim tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 2” adlı dərs vəsaitlərinin müzakirəsi. |
| 9. 2024-cü ildə elmi-tədqiqat sahəsində fərqlənən əməkdaşlara elmi-tədqiqat diplomlarının təqdim edilməsi. |

## I. Universitetdə tədris prosesinin gedişi.

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdilər:**
İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini **dos. Feyzullayev Babək Xasay oğlu** çıxış edərək bildirdi ki, ümumilikdə fakültə üzrə 15000 saat dərs yükü ilə 90 müəllim dərs tədris edir. Fakültə üzrə vaxtına uyğun olaraq aralıq imtahan cədvəlləri müəyyən edilir və imtahan gedişində hələ ki, bir neqativ hal və ya

problemlə qarşılaşmamışıq. Fakültəmiz tərəfindən mütəmadi olaraq kafedralara müəllimlərin nizam-intizamı və dərsə davamiyyəti haqda məlumat verilir. Ümumi olaraq sentryabrdan bu yana 140 saat əvəz edilmə halları baş vermişdir, bu da ümumi dərs yükü nisbətinə az faiz təşkil edir.

Humanitar, təhsil və dillər fakültəsinin dekanı **dos. Muxtarzadə Nuridə Zabit qızı** çıxış edərək bildirdi ki, 3 dekan tərəfindən dərslərin monitorinqi keçirilmişdir, bu müddət ərzində 6 punkt üzrə keyfiyyət yoxlanışı həyata keçirmişik. Təbii ki, bir sıra nöqsanlar aşkarlanmışdır, bu barədə bizim müvafiq qeydiyyatlarımız mövcuddur.

İngilis dilində tədrisin təşkili fakültəsinin dekanı **Əliyev Aydın Arif oğlu** çıxış edərək bildirdi ki, hal-hazırda universitet üzrə fakültədə təhsil alan 192 yerli, 62 xarici tələbəmiz var. İndiki vəziyyətdə ilkin işimiz tələbələrin ingilis dili səviyyələrini yüksəltməkdir. Bu səbəbdən "Foundation" proqramı hazırlamış və müəllimlərimizi bu işə cəlb etmişik. Bildirmək istərdim ki, xarici tələbələrimizin dərs davamiyyəti heç də ürəkaçan deyildir. Bununla bağlı ciddi tədbir görməyimiz şərtdir.

Təbiət və texnologiya fakültəsinin dekanı **dos. Məhərrəmova Sevinc Telman qızı** çıxış edərək bildirdi ki, fakültədə 6 ixtisas üzrə 719 tələbə tədris alır. Qeyd edim ki, mütəmadi olaraq dərslər yoxlanılır. Monitorinq zamanı 41 müəllimin dərsində iştirak etmişik və bir sıra çatışmazlıqlar aşkar etmişik. Bir sıra dərslər əvəz edilir və əvəz edilən dərslər qənaətbəxş hesab edilmir.

Tədris işləri üzrə prorektor **dos. Qafarov Qabil Alxan oğlu** çıxış edərək bildirdi ki, ümumi olaraq tədris prosesi normal gedir. Monitorinqin nəticəsi üzrə apardığımız təhlillərə görə 111 auditoriyada nəzarət aparılmış, 36 intizam pozuntusu halları baş vermişdir. Qeyd etmək lazımdır ki, intizam pozuntusuna daha çox yeni işə alınan müəllimlər yol verirlər. Bu onu göstərir ki, onlar universitetimizin intizam qaydaları ilə yaxından tanış deyillər. Kafedra müdirlərindən xahiş edirik ki, yeni müəllimləri universitetin nizam-intizam qaydaları ilə yaxından tanış etsinlər və bu işə ciddi yanaşsınlar.

Strateji inkişaf və karyera departamentinin rəhbəri **Əzimzadə Aslan Cavid oğlu** çıxış edərək bildirdi ki, universitet daxilində 1 həftə boyunca "Karyera həftəsi" keçirilmişdir. "Karyera həftəsi" universitetin 30 illik yubileyinə həsr edilmişdir. Bu müddət ərzində 517 tələbəmiz 4 təlimdə iştirak etmişdir və təlimlər üçün 10 təlimçi dəvət edilmişdir. Nəzərinizə çatdırım ki, bu həftə ərzində "Qanun" nəşriyyatı tərəfindən 2 gün endirimli kitab satışı təşkil edilmişdir. Bu məsələ mediada 17 xəbər platformasında yer almış və 2500-dən çox baxış sayı əldə etmişdir. Əzimzadə Aslan Elmi Şura üzvlərini "Karyera həftəsi" ilə bağlı hesabtla tanış etdikdən sonra hesabatın müzakirə və təsdiq edilməsini təklif etdi.

Startup və İnkubasiya mərkəzinin rəhbəri **Göyüşova Rəvanə** çıxış edərək bildirdi ki, yaxın günlərdə universitetimizdə "Hakaton" yarışı keçirilmişdir. Bu prosesdə universitetimizin tələbə təşkilatları da bizə yaxından köməklik etmişlər. Yarışda OYU-un 3 komandası yer tutmuşdur, bu da çox yaxşı hal hesab edilə bilər.

**Prof. Ə.A.Vəliyev** çıxış edərək təklif etdi ki, həm Rəvanə xanıma, həm də tələbə təşkilat üzvlərinə göstərdikləri təşkilatçılığa görə Elmi Şuranın qərarı ilə təşəkkürnamə təqdim edilsin.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. Dekanların hesabatları qəbul edilsin.
2. Qos. Q.Qafarovun hesabatı qəbul edilsin.
3. A.Əzimzadənin Karyera Həftəsi ilə bağlı hesabatı təsdiq edilsin.
4. Prof. Ə.A.Vəliyevin təklifi qəbul edilsin.

**II. Doktorantların dissertasiya mövzularının və elmi rəhbərlərinin təsdiqi məsələsi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. Məmmədov Fəxrəddin Sadiq oğlu çıxış edərək doktorantların dissertasiya mövzuları və elmi rəhbərləri ilə bağlı məlumat verdi. O, bildirdi ki, mövzular və rəhbərlər kafedralarda və elmi-metodiki şurada müzakirədən keçmişdir. Qeyd etmək istərdim ki, bu il universitetimizin doktorantura pilləsinə 5 universitet məzunları daxil olmuşlar, onlardan 3-ü UNEC, 2-si AZMİU, 1-i ADU, 2-si OYU, 1-i isə Almaniya universitetinin məzunudur. prof. Məmmədov Fəxrəddin Sadiq oğlu doktorantların dissertasiya mövzularının və elmi rəhbərlərinin müzakirə edildikdən sonra təsdiq edilməsini təklif etdi. Müzakirələrdən sonra qərar verilir.

**Qərar:**

1. “Dillər” kafedrasının fəlsəfə proqramı üzrə 5704.01 “Dil nəzəriyyəsi” ixtisası üzrə qiyabi doktorantı Əsədova Aysu Mərdan qızının dissertasiya işinin mövzusu “Mətn növlərinin mənimsənilməsi və koqnitivlik” və f.f.d., dos. S.S.Məmmədzadə doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

2. “Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi” ixtisası üzrə əyani doktorantı Dadaşov Şahin Raqib oğlunun dissertasiya işinin mövzusu “Soft Computing əsasında Elektron ticarət platformalarında müştəri etibarı və loyallığının dəyərləndirilməsi modeli” və prof. R.B.Ələkbərov doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

3. “Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi” ixtisası üzrə əyani doktorantı Kuliyev Mudafiia Xəzər oğlunun dissertasiya işinin mövzusu “Применение методов вейвлет анализа и нейронных сетей к задачам

дистанционного мониторинга процессов засоления почв и урбанизации" və prof.Bilal Telman oğlu Bilalov və t.ü.f.d.Zakir Cümşüd oğlu Zabidov doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

4. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5310.01 "Dünya iqtisadiyyatı" ixtisası üzrə əyani doktorantı Vəliyev Tural Rauf oğlunun dissertasiya işinin mövzusu "Almaniya iqtisadiyyatında Ekoloji,Sosial,İdarəetmə standartlarının" və dos. Musayev Əfqan Əbülfəz oğlu doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

5. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5312.01 "Sahə iqtisadiyyatı" ixtisası üzrə əyani doktorantı Sadıqlı Kamran Elman oğlunun dissertasiya işinin mövzusu "Startap ekosistemlərinin sənaye və xidmət sektorlarında innovasiya fəaliyyətinə təsirləri" və i.f.d.N.Ş.Xalıqova doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

6. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5312.01 "Sahə iqtisadiyyatı" ixtisası üzrə əyani doktorantı Cəfərzadə Hüseynağa Təyyar oğlunun dissertasiya işinin mövzusu "Qarabağ regionunda turizmin inkişafının perspektivləri" və i.e.d.,prof. Ə.Q.Əlirzayev doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

7. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5308.01 "Ümumi iqtisadiyyat" ixtisası üzrə əyani doktorantı Əliyev Ayxan Tahir oğlunun "Основные направления развития обрабатывающей промышленности Азербайджана в контексте целей устойчивого экономического развития" dissertasiya işinin mövzusu və i.e.d.,prof. Elşad Yaqub oğlu Məmmədov doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

8. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5311.01 "Müəssisələrin təşkili və idarə " ixtisası üzrə əyani doktorantı İbrahimova Nigar Bağban qızının "Azərbaycanda alternativ enerji sektoru müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri" dissertasiya işinin mövzusu və i.e.d.,prof. Elşad Yaqub oğlu Məmmədov doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

9. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə proqramı üzrə 5311.01 "Müəssisələrin təşkili və idarə " ixtisası üzrə əyani doktorantı Arogun Oluwasegun Michaelin "Entrepreneurship orientation and developing economies" dissertasiya işinin mövzusu və i.f.d.,dos. N.Qarayev doktoranta elmi rəhbər təyin olunması məsələsi təsdiq edilsin.

**III. Kafedralar üzrə müəllimlərin elmi fəaliyyəti, elmi seminarlar və elmi tədqiqat işlərinin müzakirəsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdilər:**

Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor **prof. Məmmədov Fəxrəddin Sadiq oğlu** çıxış edərək bildirdi ki, mütəmadi olaraq kafedralarda elmi seminarlar təşkil edilir və bu seminarların bir çoxunda iştirak edirəm. Qeyd edim ki, bu seminarlar iki istiqamət üzrə aparılır. Həftəlik kafedraların seminarları və süni intellektlə bağlı keçirilən seminarlar. Qeyd etmək yerinə düşər ki, bu tip seminarlar kafedralarda akademik mühitin göstəricisidir. Bu yaxınlarda Elm və Təhsil Nazirliyi tərəfindən 2025-ci ildə kafedraların elmi-tədqiqat işlərinin siyahısı tələb edilmişdir. Siyahımız hazırdır, rektorun imzası ilə Nazirliyə tezliklə göndərəcəyik.

Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdiri **prof. Bilalov Bilal Telman oğlu** çıxış edərək bildirdi ki, mütəmadi olaraq kafedrada seminarlar keçirilir. Təəssüf ki, bu elmi seminarlara professor müəllimlərimizi hələ tam cəlb edə bilməmişik. Düşünürük ki, gələcəkdə bu aradan qaldırılacaq və daha çox müəllim elmi-seminarlarda iştirak edəcəklər.

**Qərar:**

prof. F. Məmmədov və prof. B.Bilalovun məruzələri qəbul edilsin.

**IV. 2026-2027-ci tədris ilində bakalavr və magistratura səviyyəsi və MBA proqramı üzrə proqnoz yerlərin layihəsinin müzakirəsi**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Tədrisin təşkili və yeni təlim texnologiyaları üzrə prorektor dos. Q.Qafarov məsələ ilə bağlı çıxış etdi. O, qeyd etdi ki, universitet olaraq Elm və Təhsil Nazirliyinə 2026-2027-ci tədris ili üçün plan yeri vermişik. Bundan əlavə yeni ixtisaslarlala bağlı da müraciət etmişik. O, yeni ixtisaslar üçün lazım olan sənədlərin indidən

hazırlanmasının zəruri olduğunu vurğuladı. Dos. Q.Qafarov, həmçinin, ingilis sektorları üzrə də yeni ixtisasların verilməsini vurğuladı.

dos.Q.A.Qafarov 2026-2027-ci tədris ili üçün tələbə qəbulu üzrə proqnoz yerlərin layihəsini Elmi Şura üzvlərinə təqdim edərək onun müzakirə və təsdiq olunmasını təklif etdi.

**Çıxış etdi:**

Elmi Şura iclasına dəvət edilmiş təsisçi R.İrzayev çıxış edərək bildirdi ki, hal-hazırda ölkəmizdə marketinq prosesini effektiv həyata keçirmək üçün təhsil müəssisələrində müvafiq ixtisasların olması və artırılması çox əhəmiyyətlidir. Bu baxımdan gələcək tədris illərində marketinq üzrə, iqtisadiyyat üzrə ixtisaslarının artırılmasını təklif edərdim.

Elmi Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**

2026-2027-ci tədris ili üçün tələbə qəbulu üzrə proqnoz yerlərin layihəsi təsdiq edilsin.

**V. Odlar Yurdu Universitetinin 30 illik yubileyinə hazırlığın vəziyyəti barədə müzakirə**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

OYU İdarəetmə Şurasının sədri **prof. Vəliyev Samir Əhməd oğlu** çıxış edərək məsələ ilə bağlı məlumat verdi. O, bildirdi ki, gələn həftənin sonuna qədər təqdim ediləcək medallar, ordenlər və təltifnamələr hazır olacaq. Bizim hal-hazırda kitab nəşri prosesimiz davam etməkdədir. Düşünürük ki, bütün hazırlıqlarımız dekabr ayının ilk 10 günü ərzində yekunlaşacaqdır. Yubileyin keçirilməsi tarixini dekabr ayının 10-20-si aralığındakı günlərdən seçə bilərik.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

Odlar Yurdu Universitetinin 30 illik yubileyinə hazırlığın vəziyyəti qənaətbəxş hesab edilsin.

**VI. Odlar Yurdu Universitetində professor, dosent, baş müəllim və müəllim vəzifələrinə yüksəlmə və təyinat qaydaları haqqında əsasnamənin müzakirəsi**

**Eşidildi:**

**Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.**

**Çıxış etdi:**

Strateji inkişaf və beynəlxalq əlaqələr üzrə prorektor Məmmədov Elşad Yaqub oğlu çıxış edərək Odlar Yurdu Universitetində professor, dosent, baş müəllim və müəllim vəzifələrinə yüksəlmə və təyinat qaydaları haqqında yeni əsasnamə ilə şura üzvlərini tanış etdikdən sonra əsasnamənin müzakirə edilərək təsdiq edilməsini təklif etdi.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

Odlar Yurdu Universitetində professor, dosent, baş müəllim və müəllim vəzifələrinə yüksəlmə və təyinat qaydaları haqqında əsasnamə təsdiq edilsin.

**VII. "Beynəlxalq münasibətlər və turizm" kafedrasının baş müəllimi Elxan Əliyev tərəfindən tərtib edilmiş "Turizm coğrafiyası" adlı dərs vəsaitinin müzakirəsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

"Beynəlxalq münasibətlər və turizm" kafedrasının baş müəllimi Elxan Əliyev şura üzvlərini "Turizm coğrafiyası" adlı dərs vəsaiti ilə tanış etdikdən sonra müzakirə edilməsini təklif etdi.

Müzakirələrdən sonra qərar verilir.

**Qərar:**

"Beynəlxalq münasibətlər və turizm" kafedrasının baş müəllimi Elxan Əliyev tərəfindən tərtib edilmiş "Turizm coğrafiyası" adlı dərs vəsaiti çapa tövsiyə edilsin.

**VIII. “Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasının müəllimləri Eyyubov Ramazan, Hüseynov Eldar və Sultanova Vüsalə tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 1” və Eyyubov Ramazan, Səmədzadə Fərahim tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 2” adlı dərs vəsaitlərinin müzakirəsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

“Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasının müəllimi Eyyubov Ramazan **“Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 1”** və **“Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 2”** dərs vəsaitləri haqqında məlumat verdikdən sonra vəsaitlərin müzakirə edilməsini və çapa tövsiyə edilməsini təklif etdi.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

“Riyaziyyat və rəqəmsal texnologiyalar” kafedrasının müəllimləri Eyyubov Ramazan, Hüseynov Eldar və Sultanova Vüsalə tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 1” və Eyyubov Ramazan, Səmədzadə Fərahim tərəfindən hazırlanmış “Xətti cəbr və riyazi analiz (Nümunələr və tapşırıqlar) 2” adlı dərs vəsaitləri çapa tövsiyə edilsin.

**IX. 2024-cü ildə elmi-tədqiqat sahəsində fərqlənən əməkdaşlara elmi-tədqiqat diplomlarının təqdim edilməsi.**

Prof. Ə.A.Vəliyev 2024-cü ildə elmi-tədqiqat sahəsində fərqlənən aşağıdakı əməkdaşlara elmi-tədqiqat diplomlarını təqdim etdi.

Prof. Məmmədov Fəxrəddin Sadiq oğlu
Prof. Cabbarov Rəşid Vəkil oğlu
Prof. Məmmədov Ramazan Mustafa oğlu
Prof. Sofiyev Abdulla Heydər oğlu
Prof. Ələkbərov Ramiz Balaşirin oğlu
Əzimzadə Aslan Cavid oğlu

Prof. Ə.A.Vəliyev və Elmi Şura üzvləri elmi-tədqiqatçıları təbrik edərək onlara gələcək işlərində uğurlar azru etdilər. Tədqiqatçılar da öz növbələrində universitet tərəfindən təqdim edilən diplomlara görə universitet rəhbərliyinə öz təşəkkürlərini bildirdilər.

Sonda prof. Ə.A.Vəliyev Şura üzvlərinə iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

**Sədr** **prof. Ə.A.Vəliyev**

**Elmi katib** **dos. S.S.Məmmədzadə**